*Ümid Çingiz oğlu ƏLİZADƏ*
*doktorant, Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: umidalizada9@gmail.com*

# POSTKONFLİKT ƏRAZİLƏR KONTEKSTİNDƏ AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN İNNOVASİYALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Xülasə***

Qida sənayesi ərzaq təhlükəsizliyi sisteminin əvəzsiz komponenti kimi istənilən ölkənin milli iqtisadiyyatının əsas sahələrindən biri hesab edilir ki, onun inkişaf dərəcəsi əhalinin fərdi tələbatını ödəmək üçün kifayət qədər həcmdə zəruri ərzaq məhsulları ilə təmin olunma səviyyəsini tam müəyyənləşdirir. Qida sənayesinin əsas vəzifələrindən biri əhalini kifayət qədər miqdarda qidalı və təhlükəsiz məhsullarla təmin etməkdir. Bunun üçün resurslardan, o cümlədən kənd təsərrüfatı torpaqlarından, sudan və enerjidən səmərəli istifadə tələb olunur. Bundan əlavə, istehsalın davamlılığını təmin etmək və ətraf mühitə mənfi təsirləri minimuma endirmək lazımdır.

***Açar sözlər: Azərbaycan, postkonflikt ərazilər, qida sənayesi, innovasiya, qida sənayesinin innovasiyalaşdırılması, innovasiyalaşdırma istiqamətləri.***

***

Qida sənayesi istənilən ölkədə prioritet və strateji əhəmiyyətli sənaye hesab olunur, təkcə daxili bazarın deyil, həm də beynəlxalq bazarın tələbatını ödəməyə qadirdir. Professor E.A.Quliyev qeyd edir ki: "Əhalinin bütün növ ərzaq məhsulları ilə etibarlı təminatı sosial olmaqla bərabər, ictimai-siyasi önəm də daşıyır. Ərzaq təhlükəsizliyi ölkənin sisyasi və iqtisadi müstəqilliyinin möhkəm təməli kimi xidmət edir" [1, s. 207]. Buna görə qida sənayesi istənilən ölkə üçün əsas və vacibdir. Əminliklə demək olar ki, bu, əhalinin sağlamlığında, ərzaq təhlükəsizliyində və sosial inkişafda önəmli rol oynayır. Məhsulun keyfiyyəti, sağlamlıq və gigiyena qida sənayesində əsas problemlərdir. Hazırkı şəraitdə qida sənayesi müəssisələrinin rəhbərləri müəssisənin fəaliyyətini bazar şəraitinə uyğunlaşdırırlar. Əsas diqqət cari istehsal problemlərinin həllinə, istehsal xərclərinin azaldılmasına, biznesin gələcək inkişafı strategiyasının seçilməsi və reallaşdırılmasına yönəldilir.

Qida sənayesinin inkişafının əsas istiqamətlərindən biri istehsalın səmərəliliyinin artırılmasıdır. Bura innovativ texnologiyaların tətbiqi, emal proseslərinin təkmilləşdirilməsi, logistikanın optimallaşdırılması və inventarların idarə edilməsi daxildir. Digər mühüm cəhət qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsidir. Bura xammal, istehsal prosesi, məhsulların qablaşdırılması və etiketlənməsinə nəzarət daxildir. Müntəzəm monitorinq və təhlillər istehlakçı sağlamlığı üçün mümkün riskləri müəyyənləşdirməyə və qarşısını almağa imkan verir. Qida sənayesi də sosial və ekoloji cəhətdən məsuliyyətli olmalıdır. Buraya işçilərin əmək hüquqlarına hörmət etmək, yerli icmaları dəstəkləmək və davamlılıq proqramlarında iştirak daxildir. Ümumiyyətlə, qida təhlükəsizliyi sistemində qida sənayesinin inkişafı bütün maraqlı tərəflərin kompleks yanaşmasını və qarşılıqlı fəaliyyətini tələb edir. Buraya dövlət qurumları, istehsalçılar, istehlakçılar və elmi qurumlar daxildir. Yalnız birgə səylərlə sabit və dayanıqlı qida təhlükəsizliyinə nail ola, hər kəs yüksək keyfiyyətli və təhlükəsiz qida ilə təmin edilə bilər [2, s.253]. Qida sənayesi, digər sənaye sahələri kimi, xarici mühitin, o cümlədən dövlət tənzimlənməsinin təsirinə məruz qalır.

Azərbaycanda qida sənayesinin inkişafı onun əsas alt sahələrinin və bütün regionlarının vəziyyəti ilə müəyyənləşdirilir. Azərbaycanda qida sənayesinin inkişaf etdirilməsində yeni tendensiya yaranıb ki, bu da 30 ilə yaxın bir müddət ərzində 20%-ə qədər erməni işğalında olan torpaqların azad olunması ilə bağlıdır. Bu gün Azərbaycanın postkonflikt ərazilərinin inkişafı, ermənilərin etdiyi vandallıqlar nəticəsində yaranan mənfi təzahürlərin aradan qaldırılması, həmin ərazilərin potensial imkanlarının öyrənilməsi və iqtisadi dövriyyəyə cəlb edilməsi ölkənin iqtisadi siyasətinin əsas istiqamətini təşkil edir. Ərazilərin coğrafi mövqeyi və iqlimi, zəngin resurs potensialı burada kənd təsərrüfatını inkişaf etdirməyə imkan verir. Beynəlxalq təcrübədən müşahidə etmək olar ki, postkonflikt ərazilərdə qısa müddət ərzində qida sənayesinin inkişafına nail olunması mümkün

deyil. Azərbaycan da erməni işğalçılarından təmizlənmiş ərazilərdə qida sənayesini daxili resurslar hesabına sürətlə yaratmaq iqtidarında deyil. Bunun üçün minalanmış ərazilər tamamilə təmizlənməli, təhlükəsiz iş şəraiti təmin edilməlidir. Qida sənayesinin inkişafı birbaşa dövlət dəstəyindən, bütün növ investisiyalardan, eləcə də yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi imkanlarından və stimullarından da asılıdır. Odur ki, bu ərazilərdə yenidənqurma prosesində sahibkarlıq prinsiplərinin tətbiqi dövlət dəstəyinin ən önəmli tərkib hissəsi hesab edilməlidir. Hesab edilir ki, dövlətin qida sənayesinin inkişaf etdirilməsinin ilkin mərhələsində ən ümdə təsir vasitələri bu sahədə strateji məqsədlərin reallaşdırılmasına və bu prosesə iqtisadi tərəfdaşların geniş şəkildə cəlb olunmasına yönəldilməlidir [3, s.56-57].

Azərbaycanın postkonflikt əraziləri, məsələn Ağdam, Cəbrayıl, Zəngilan meyvə-tərəvəz və əkinçiliyin inkişafı baxımından əlverişli olduğu halda, Qubadlı, Kəlbəcər, Laçın isə heyvandarlığın inkişafı baxımından kifayət qədər potensial imkanlara malikdir. Həmin əraziləri dirçəltməklə kənd təsərrüfatının inkişafına, tərəvəz və bitkiçilik məhsullarının istehsalına, habelə heyvandarlıq sahəsinin inkişafına təkan veriləcəkdir ki, bunlar da son nəticədə təkcə postkonflikt bölgələrin deyil, bütün ölkənin qida sənayesinin inkişafına öz müsbət təsirlərini göstərə biləcəkdir [4, s.73].

Qida sənayesinin innovasiyalaşdırılması proseslərində azad iqtisadi zonaların (AİZ) rolunu unutmamaq lazımdır. AİZ-lər bütövlükdə ölkə iqtisadiyyatının bütün sektorlarında önəmli rol oynayır, onlar yaradılması iqtisadi siyasətdə nisbətən yeni perspektivli istiqamətdir. Bir çox dünya ölkələrində AİZ-lər xarici kapitalın cəlb edilməsində effektiv mexanizm olduğunu sübuta yetiriblər və onlar ölkənin investisiya siyasətinin elementləri hesab olunur ki, burada iqtisadiyyatın idarə edilməsinin yeni mexanizmləri və innovativ, resursa qənaət edən, sosial yönümlü xarakterini müəyyən edən prioritet sahələrin və istehsalın inkişafına investisiyaların cəlb edilməsi imkanları nəzərdə tutulur. AİZ-lərin Azərbaycanın bir çox qeyri-neft sektorlarında yaradılması həmin sektorlarda iqtisadi aktivliyi yüksəltməklə bərabər, rəqabətqabiliyyətli və ixracyönlü milli məhsulların – milli brendlərin çeşidinin önəmli dərəcədə artırılmasını stimullaşdıra bilər. Bu kimi üstünlüklərə nail olunması üçün iqtisadi fəaliyyət sahələrinin innovasiyalaşdırılması və yeni texnologiyaların ölkəmizə gətirilərək həmin fəaliyyət sahələrində tətbiqi intensivləşdirilməlidir [5, s.318]. AİZ-lərlə yanaşı texnoparklar da qida sənayesinin innovasiyalaşdırılmasının gücləndirilməsi baxımından böyük potensiala malikdir. Hazırda Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində AİZ-lərin və onların bazasında texnoparkların yaradılmasına başlanmışdır. Bununla bağlı ölkə Prezidenti tərəfindən müvafiq sərəncamlar da imzalanmışdır. Məsələn, Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin 28 may və 4 oktyabr tarixlərində imzalanmış sərəncamlarla Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının yaradılmasına başlanılmışdır. Həmin parkların yaradılmasında başlıca məqsəd Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi, həmin ərazilərin sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsi, innovativ texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının, o cümlədən kənd təsərrüfatı və qida sənayesi istehsallarının təşkili, öz dədə-baba yuvalarına qayıdan vətəndaşlarımızın məşğulluğunun təmin edilməsi və digərləridir. Bu ərazilərdə texnoparklar yaradılarkən onların təbii resurs potensialı əsas götürülmüşdür. Məsələn, Ağdam rayonu kənd təsərrüfatı məhsullarının istehsalı üçün, xüsusilə də qida təhlükəsizliyində önəmli rol oynayan taxıl istehsalının artırılması üçün güclü potensiala malikdir. Bu amil Azərbaycanın yaxın gələcəkdə davamlı qida təhlükəsizliyinin təminatında, idxaldan asılılığının azaldılmasında önəmli rol oynaya bilər. Müasir reallıqları nəzərə alaraq Ağdamda bitkiçilik və heyvandarlıqla yanaşı, kənd təsərrüfatı istehsalının genişləndirilməsi, üzümçülüyün, baramaçılığın və digər sahələrin inkişaf etdirilməsi, intensiv meyvəçilik sahəsinin yaradılması üçün böyük perspektivlər var. Ağdamın inkişafı ölkəmizin kənd təsərrüfatı məhsullarının ümumi həcmini 8-10 faiz artıracaqdır [6, s. 153]. Qida sənayesi xammalın mövcudluğu, enerji səmərəliliyi, məhsulun keyfiyyəti, ekoloji davamlılıq və sosial məsuliyyət kimi bir çox amilləri hökmən nəzərə almalıdır. O, iqlim dəyişikliyi və yeni xəstəliklərin yaranması ilə bağlı dəyişən şərtlərə və risklərə uyğunlaşa bilməlidir.

Beləliklə, qida sənayesinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi onların idarə edilməsi mexanizmindən asılıdır ki, bu da müxtəlif səbəblərlə bağlıdır və bununla bağlı bir qrup ümumiləşdirmələr aparmışıq:

Qida sənayesinə daxil olan müəssisələrin əksəriyyəti regional bazarlar, bəzən isə yerli bazarlar səviyyəsində fəaliyyət göstərir;

Qida sənayesi daxilində orta və kiçik biznesin inkişafı qida sənayesinin inkişafında regional hakimiyyət orqanlarının rolunu gücləndirir;

İnnovasiyaların idarə edilməsi mexanizmi formalaşdırılarkən hər bir regionun məhsuldar qüvvələrinin səmərəli istifadəsini təmin etmək, buradakı müəssisələrin digər ərazilərdəki müəssisələrlə iqtisadi münasibətləri yaxşılaşdırmaq üçün inzibati və iqtisadi stimullardan istifadə edilə bilər;

Qida sənayesinin mühüm sosial əhəmiyyətini nəzərə alaraq, onun inkişafı üçün innovasiyaların stimullaşdırılması əhalinin yaşayış səviyyəsinin və məmnunluğunun yüksəldilməsinə kömək edəcəkdir;

Müxtəlif növ innovasiyaların inteqrasiyası və onların regional müəssisələrdə istifadəsini sürətləndirmək üçün elm, təhsil və istehsal strukturları arasında qarşılıqlı əlaqə problemləri ilə məşğul ola biləcək, innovativ biznesə konsaltinq və informasiya dəstəyi göstərə bilən mərkəzlərin yaradılması məqsədəuyğundur, çünki onlar innovativ fəaliyyətin stimullaşdırılması üsullarının hazırlanmasında və innovativ layihələrin maliyyələşdirilməsi mənbələrinin axtarışında, habelə cəlb edilmiş vəsaitlərin xərclənməsinə nəzarəti reallaşdırmaq imkanına malikdirlər;

Müəssisə səviyyəsində innovasiyanın stimullaşdırılması işçilərin innovativ fəaliyyətinin artırılması üçün lazımi şəraitin yaradılmasını əhatə edir. İnnovasiyanın stimullaşdırılmasının nəticəsi innovativ məhsulların istehlak xassələrinin artması hesabına gəlirliliyinin artması və texnoloji innovasiya nəticəsində xərclərin azalması ola bilər;

Təşkilati-iqtisadi mexanizmin reallaşdırılmasından və innovasiya fəaliyyətinin stimullaşdırılması mərkəzinin yaradılmasından gözlənilən effekt yerli istehsalçıların istehsal etdikləri qida məhsullarının keyfiyyətinin yüksəldilməsinə, satış sisteminin təkmilləşdirilməsinə və qida sənayesində davamlı innovasiyalaşdırılma proseslərinin sürətləndirilməsinə imkan verəcəkdir və s.

## ƏDƏBİYYAT


1. Quliyev E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. Bakı, 2023. “Kooperasiya” nəşriyyatı, 320 s.
2. Иванов, В.А. Пищевая промышленность в системе обеспечения продовольственной безопасности / В.А. Иванов // Экономика: вчера, сегодня, завтра. – 2023. – Т. 13, № 5-1, – с. 252-258.
3. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə yeyinti sənayesinin dövlət tənzimlənməsi istiqamətləri. Audit, – 2021. 2 (32), – s.50-59
4. Əsədov Ə., Mirzəyev S., Əsədzadə, Z. Azərbaycan Respublikasının keyfiyyətli ərzaq təminatında işğaldan azad edilmiş ərazilərin potensial imkanları. – Bakı: İqtisadi islahatlar elmi-analitik jurnal, – 2022. № 3(4), – s.70-76.
5. Əliyev Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt. SDU-nun redaksiya və nəşr işləri şöbəsi, – 2022. – 422 s.
6. Əliyev Ş.T. Ağdamda yeni iqtisadiyyat quruculuğunun strateji aspektləri və prioritetləri / Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə Xüsusi Nümayəndəliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Qarabağ Dirçəliş Fondu və AMEA İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” mövzusunda beynəlxalq elmi-praktik konfransı, Ağdam, 16-17 sentyabr 2021. – S. 151-156. - [Elektron resurs] / URL: http://economics.com.az/images/fotos/Kitablar/2021/Agdam_konfrans_tam.pdf.

***Умид Чингиз оглы Ализаде***
***Докторант Азербайджанский Университет Кооперации***
***Электронная почта: umidalizada9@gmail.com***

**Инновационные направления пищевой промышленности Азербайджана в контексте постконфликтных районов**

***Резюме***

Являясь незаменимым компонентом системы продовольственной безопасности, пищевая промышленность считается одной из основных сфер народного хозяйства любой страны, степень ее развития полностью определяет уровень обеспечения необходимыми продуктами питания в достаточном объеме для удовлетворения потребностей человека. Потребности населения. Одной из основных задач пищевой промышленности является обеспечение населения достаточным количеством питательной и безопасной продукции. Это требует эффективного использования ресурсов, включая сельскохозяйственные земли, воду и энергию. Кроме того, необходимо обеспечить непрерывность производства и минимизировать негативное воздействие на окружающую среду.

***Ключевые слова: Азербайджан, постконфликтные территории, пищевая промышленность, инновации, инновации пищевой промышленности, направления инноваций.***

***Umid Chingiz Alizadeh***
***Doctoral student of Azerbaijan University of Cooperation***
***Email: umidalizada9@gmail.com***

**Innovative directions of the food industry of Azerbaijan in the context of post-conflict districts**

***Summary***

Being an indispensable component of the food security system, the food industry is considered one of the main spheres of the national economy of any country, the degree of its development fully determines the level of provision of necessary food products in sufficient volume to satisfy human needs. The needs of the population. One of the main tasks of the food industry is to provide the population with a sufficient amount of nutritious and safe production. This requires efficient use of resources, including agricultural land, water and energy. In addition, it is necessary to ensure the continuity of production and minimize the negative impact on the environment.

***Keywords: Azerbaijan, post-conflict territories, food industry, innovations, food industry innovations, directions of innovations.***